**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

№ 01

**Bakı şəhəri** "26" yanvar **2019-cu il**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanının 1-ci hissəsini, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının 1-ci hissəsi ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi haqqında Əsasnamə"nin 5.8-ci, 5.10 - 5.14-cü bəndlərini və "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" 2018-ci il 6 noyabr tarixli 652 nömrəli Sərəncamını rəhbər tutaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2019-cu il 11 yanvar tarixində keçirilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrasının təmin edilməsi və öz fəaliyyətinin təşkili məqsədilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2019-cu il 11 yanvar tarixində keçirilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrası ilə əlaqədar Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən görüləcək işlər və qarşıda duran vəzifələr haqqında Agentliyin sədri Qoşqar Təhməzlinin məruzəsi nəzərə alınsın.

**2.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Bakı Regional Bölməsinin 2018-ci il üzrə fəaliyyətinə dair Agentliyin Bakı Regional Bölməsinin rəisi Əkbər Əliyevin hesabatı nəzərə alınsın.

**3.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Rüfət Rüstəmzadəyə tapşırılsın ki, Agentliyin struktur bölmələri, strukturuna daxil olan regional bölmləri və tabeliyindəki publik hüquqi şəxs statuslu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu tərəfindən Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının yerinə yetirilməsi sahəsində icra intizamının daha da gücləndirilməsini təmin etsin.

**4.** "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Əsasnaməsi" təsdiq edilsin (*əlavə olunur*).

**5.** Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Hüquq, kadr və icraya nəzarət şöbəsinin Kargüzarlıq sektorunun müdiri Asif Əbdüləzimov Kollegiyanın məsul katibi təyin edilsin.

**6.** Kollegiyanın məsul katibi Asif Əbdüləzimova tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.

**7.** Bu Qərarın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Əsas:** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 2019-cu il 26 yanvar tarixli iclasının protokolu.

**Kollegiyanın sədri** **Qoşqar Təhməzli**